# 44 İLƏ SIĞMAYAN ARZULAR...

## *Görkəmli mühəndis-geoloq Pirmurad Əhmədovun əziz xatirəsinə*

Hər bir insanın həyatda örnək ala-ca biləcəyi şəxsiyyətlər, görkəmli si-malar var. Onların keçdiyi şərəfli ömür yolu, aşıladığı milli və mənəvi keyfiyyətlər, yüksək ailə dəyərləri, həyatda ikən, bəlkə də insanlar tərə-findən layiqincə qiymətləndirilmir. Lakin vaxt ötür, həm də sürətlə keçir, biz yaşa dolduqca dərin yuxudan ayı-lır, həmin insanı sonsuza qədər itirdi-yimizi idrak etməyə başlayırıq. Bu gü-nün gənci sabahın müdrikinə çevrilir, yaş bizləri dəyişdirir, püxtələşdirir və dərin düşüncələrə qərq edərək hər da-im yanında olmuş əzizinin yoxluğunu düşünməyə vadar edir. Daha doğrusu, həyatın enişli, yoxuşlu, bəzən dar, bə-zən geniş yolları ilə irəlilədikcə, haq-lı, haqsız, acı və şirin duyğular içəri-sində çarəsiz qaldıqca, axtardığın, la-kin tapa bilmədiyin o insanı, uca zir-vəni xatırlayır, darıxır və kövrək xati-rələrlə baş-başa qalırsan. Hazırda, ey-ni hissləri yaşayıram desəm yanılma-ram. Gözlərim yolda, qulağım səsdə, yuxularıma belə gec-gec qonaq olan əzizimi – atamı elə hey axtarıram, bir gün onunla qarşılaşa biləcəyimə özü-mü inandırmağa çalışıram. Bilirəm, itirilmiş mücəvhəri axtarmaq bihudə işdir. Artıq onun qiymətini insanlar yox, qoynunda uyuduğu vətən torpağı yaxşı bilir və öz dərgahından onun üçün cənnətə bir qapı açır, həm də sonsuzluğa qədər uzanan haqq yolu...

Haqqında xatirələrimi qələmə aldı-ğım müdrik insan, bir zamanlar nur üzü ilə ətrafına təbəssüm saçan, mə-nalı həyat sürən, sözün həqiqi məna-sında şəxsiyyət, 44 ilə sığmayan arzu-larını özündən sonra, həyatı qədər se-vib əzizlədiyi ailəsinə miras qoyan,.. qısa, lakin yüksək amal, elm və təhsil, maariflənmə, bir sözlə, mənəvi dəyər-lər uğrunda həyat mübarizəsi aparan və şərəfli geoloq ömrü yaşayan – Pir-murad Şıxəhməd oğlu Əhmədovdur. Böyük insanın, həyat məktəbində şəx-sindən çox şeylər öyrəndiyim ilk müəllimimin əzizlərindən ayrılaraq haqqa, əbədi həyata qovuşduğu 4 iyun 1996-cı ildən 25 il ötür... Uzun 25 il sanki bir göz qırpımında keçdi. Lakin, keçən vaxt ərzində, həyatın davam et-diyi o illər bizə atasızlığı öyrədə bil-mədi, əksinə, yaşa dolduqca, həmdə onun əbədiyyətə qovuşduğu yaşa ya-xınlaşdıqca çox mətləbləri anlayır və müdrik insanın yerinin göründüyünü hər gün hiss edir, hələ də qəlbimizdə səssiz hüzün daşıyırıq. Hər il anadan olduğu gün, geoloqlar günü və əbədiy-yətə qovuşduğu tarixdə qəbrini ziyarət etdiyim Pirmurad Əhmədovu pande-miya səbəbindən keçən 2020-ci ildə ziyarət edə bilmədim.

Yer kürəsinin quruluşunu, onun in-kişaf tarixini, dağ süxurlarını, yerin səthini və onun laylarında gedən müa-sir fiziki prosesləri öyrənən geoloqla-rın bayramı digər bayramlardan bir qədər fərqli qeyd olunur. Yəni, "Geo-loqlar günü" hər il aprel ayının ilk ba-zar gününə təsadüf etdiyi üçün, 2021-ci ilin 4 apreli Azərbaycanda eləcə də bəzi post-sovet ölkələrində geoloqla-rın peşə bayramı günü kimi qeyd olu-nub. Əlamətdar günün tarixi SSRİ Ali Soveti Rəyasət Heyətinin 31 mart 1966-cı ildə imzaladığı Fərmana əsa-sən, mineral-xammal bazasının yara-dılmasında sovet geoloqlarının xidmət-ləri nəzərə alınaraq təsis edilmişdir.

55 yaşlı bayram hər bir azərbaycanlı geoloq üçün, həmçinin Pirmurad Əh-mədovun sağlığında dəyər verdiyi ola-mətdar və əziz tarixlərdən biri olmuş-dur.

Pirmurad Əhmədov 1952-ci ilin şaxtalı yanvar ayının 23-də Azərbay-canın cənnət guşələrindən Qubanın Qudyal çayının sağ sahili boyu uza-nan, yüksək qayalar üzərində qərar tu-tan ulu türk yurdu Zizikdə, sadə, zəh-mətkeş Şıxəhməd və Zəhranın ailəsin-də dünyaya göz açıb. Azərbaycanın şimal-şərq bölgəsində tanınan Şıxsoy-lar bəy və seyid nəslinin görkəmli nümayəndələrin-dən biri olan Pirmuradın atası Şıxəhməd uzun illər kəndin axundu kimi tanın-mış, sayılıb seçilən, sözü eşidilən müdrik el ağsaq-qallarından olmuşdur. Ana-sı Zəhra xanım Zizik kən-dinin Çkalov adına kolxo-zunda çalışmış, alnının təri ilə ömür sürmüş, övladları-nı böyütmüşdür. Zəhranın zəhmətsevərliyi haqqında 1940-1950-ci illərin bölgə qəzeti "Qızıl Quba"da ma-raqlı məlumatlara rast gəldikcə zəh-mətlə ucalmağın Əhmədovlar ailəsin-də bir həyat düsturu olduğunu anla-maq mümkündür. Bu ali keyfiyyəti va-lideynlərindən əxz edən Pirmurad Əh-mədov 7 uşaqlı (dörd oğlan, üç qız) ailənin sayca 4-cü övladı idi. Özündən yaşca böyük qardaşı Şıxvahab (1937-2013) Azərbaycan Tibb Universiteti-nin məzunu idi. Uzun illər Xaçmaz şəhər xəstəxanasında travmatoloq hə-kim kimi çalışmış və şöhrəti bütün ra-yona yayılmışdır. Özündən sonra gə-lən kiçik qardaşı Şıxkərim (1957) isə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinin məzunudur. Uzun illər Zizik kənd or-ta məktəbində yuxarı siniflərə riyaziy-yat fənnini tədris etmiş, təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsin-də çalışmışdır, hazırda təqaüddədir.

Pirmurad Əhmədov orta təhsilin ilk illərini doğulduğu Zizik kəndində al-mış, son üç yuxarı sinfi isə kəndin qonşuluğunda yerləşən Nərimanovka kəndinin orta məktəbində bitirmişdir. Hələ məktəb illərində əlaçı olmaqla yanaşı, ailəyə maddi dəstək vermək üçün, doğulduğu kəndlə qonşuluqda yerləşən Alekseyevka kəndinin poçt şöbəsində poçtalyon işləmiş və oxu-mağa marağı bir qədər də artırmışdı. O, boş vaxtlarında dərslərindən əlavə ya bədii ədəbiyyat oxuyar, ya da qə-zet səhifələrini vərəqləyərdi. Məktəb-li yaşlarından kənd kitabxanasından əldə etdiyi bədii ədəbiyyat, qəzetlərdə yazılan xəbərlər – ölkədə baş verən ic-timai-siyasi hadisələr, elm, təhsil, iqti-sadiyyat və s. haqqında oxuduğu mə-qalələr Pirmurad Əhmədovun mütalıə bacarığının inkişaf etməsində az əhə-miyyət daşımamış, poçtalyon peşəsi onu gələcək ali təhsilə və akademik həyata hazırlamışdır. Orta təhsilini müvəffəqiyyətlə başa vurduqdan son-ra, Pirmurad Əhmədov Zizikdən arzu-larının arxasınca paytaxt Bakıya üz tu-tur. Bir neçə gərgin hazırlıq mərhələ-sindən sonra imtahan verərək ali mək-təbə qəbul olur. Arzuladığı ixtisas şərqşünaslıq fakültəsi olsa da taley onu tamamilə fərqli peşəyə yönəldir. Beləki o, 1969-1974-cü illərdə, Azər-baycan Dövlət Universitetinin (indiki BDU) "Geoloji coğrafiya" fakültəsinin 388-ci qrupunda təhsil alır, komsorq kimi universitetin ictimai həyatında aktiv rol oynayır, "Tələbə Elmi Cə-miyyəti"nin hesabat-seçki konfransla-rında yaxından iştirk edir, təkliflər ve-rir. Eləcə də birinci kursdan fakültənin "Geoloji-axtarış ekspedisiyasının həm-karlar təşkilatı komitəsinin" üzvü seçi-



lir. Mütəmadi olaraq ümumuniversitet həmkarlar komitəsinin konfransına nü-mayəndə seçilir və beləcə, beş illik ali təhsilini əla qiymətlərlə başa vurur. Təhsil həyatından sonra, gənc və pers-pektivli Pirmurad Əhmədov "Faydalı qazıntı yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə, mühəndis-geoloq ixtisasına yiyələnir. ADU-nun son beşinci kursunda oxuduğu 8 okt-yabr 1974-cü ildə SSRİ Müdafiə Na-zirliyinin 139 № li əmri ilə Oktyabr (Yasamal) Rayon Hərbi Komissarlığı tərəfindən leytenant rütbəsi ilə təltif olunur. 13 oktyabr 1975-ci ildə isə Za-qafqaziya Hərbi Dairəsinin 29 №-li əmrinə müvafiq olaraq, Salyanın Ban-ka qəsəbəsində keçdiyi altı aylıq hər-bi təlim kursundan sonra, baş leyte-nant hərbi rütbəsinə layiq görülür.

Tələbəlik illəri Pirmurad üçün həm də maddi sıxıntılarla yadda qalmış, atasından xərclik istəməyi özünə rəva bilməmişdir. Aldığı cüzi tələbə stipen-diyası ilə yataqxanada ayları keçirmə-li olmuşdur. Lakin maddi çətinliklər onu dərslərindən bir an olsun ayrın-dırmamışdır, əksinə, təhsilə və elmə daha çox bağlanmasına səbəb yarat-mışdır. O, tələbə olduğu dövrdə və sonrakı illərdə respublika kitabxanala-rının əksəriyyətinin üzvü olmuş və da-vamlı oxuyub ixtisasını artırmışdır. Pirmurad Əhmədovun şəxsi arxivində mühafizə olunan sənədlər arasında – 1989-1990-cı illərdə son üzvü olduğu kitabxanalardan biri, Respublika Elmi-Texniki Kitabxanasının qırmızı üzlü oxucu bileti diqqət çəkir. Gənc mü-həndis-geoloq humanitar və ictimai fənlərlə yanaşı, təbiət və dəqiq elm-lərdə də parlaq istedada malik idi. Baxmayarq ki, qohumları arasında ADU-da yüksək vəzifədə çalışan şəxs var idi, o, qiymət almaq üçün heç vaxt qohumuna və ya digər müəllimlərə ağız açmamış, dərslərini özü oxumuş, parlaq zəkası ilə imtahanları müvəffə-qiyyətlə başa vurmuşdur. Gənc yaşla-rından iş həyatına atılmış, ardından ali təhsil və ailə həyatı Pirmurad Əhmə-dovu mübariz vətəndaş kimi yetişdir-mişdir. Həyatın üzləşdirdiyi bütün məhrumiyyətlərə sinə gərməyə çalış-mış, qayğılara, çətinliklərə təslim ol-mamışdır. 1976-cı ildə ixtisası üzrə ali təhsilin aspirantura (doktorantura) pil-ləsində təhsil almaq üçün imtahan ve-rərək Qırğızıstan SSR Elmlər Akade-miyasına (paytaxt Frunzedə (Bişkek) qəbul olmuş, lakin anasının vaxtsız vəfatı (55 yaşında) onu dərindən sar-sıtmışdır. Həyatda ən sağlam dayağını, ən böyük dəstəkçisini itirən Pirmurad Əhmədov ailəsini anasına əmanət edib aspirantura təhsi-li almağı planlaşdırsa da bu baş vermir. Ailə qayğıları, maddi çətinliklər onun bu is-təyinə ömürlük sədd çəkir. Aspirantura təhsilindən imtina etmək məcburiyyətində qal-mış, alim adını almaq arzusu ürəyində bir nisgil yaratmış-dır. Onun bu məhrumiyyətlə barışması – ailəsinə, vali-deynlərinə, xüsusilə də anası-na olan dərin ehtiramından və bağlılığından, əzizlərinə olan həssas münasibətindən irəli gəlirdi. Bir sözlə gənc geoloq üçün ana-ata nəsihəti və xe-yir-duası bütün dəyərlərin fövqündə dayanırdı. İllər ötdükcə, ya-şı irəlilədikcə səhhətində yaranan na-rahatçılıq, artan ailə qayğıları və iş hə-yatı, onu böyük elmə aparan yolda aşılmaz bir maneəyə çevrilir.

Pirmurad Əhmədov əmək fəaliyyə-tinə çox tez başlamış, universiteti biti-rər bitirməz, ixtisası üzrə işlə təmin olunmuşdu. Ali təhsili əla qiymətlərlə bitirən mühəndis-geoloq xeyli müddət, 1975-1994-cü illərdə Nazirlər Kabine-ti yanında fəaliyyət göstərən Azərbay-can Respublikasının Dövlət Geologiya və Mineral Ehtiyatları Komitəsində (DGMEK) kiçik geoloqdan baş geo-loq, tikinti materialları üzrə şimal dəs-təsinin birinci dərəcəli geoloqu vəzi-fələrinə qədər yüksəlmişdir. Qurum sovet dövründə SSRİ Geologiya Na-zirliyi "Azərbaycangeologiya" Azər-baycan Geoloji Kəşfiyyat İşləri İsteh-sal Birliyi adlanırdı. Ölkə başçısının 5 avqust 1991-ci il (№ 300) tarixli Fər-manı ilə DGMEK-nə çevrilmişdir. Dövlət müstəqilliyinin ilk 1991-1998-ci illərində qurumun ilk rəhbəri Ək-rəm Məmmədəmin oğlu Şəkinski (1929-1998) olmuşdur. Pirmurad Əh-mədov bu illər ərzində faydalı qazın-tıların işlənməsində, respublika ərazi-sində yayılan mineral ehtiyatların xü-susiyyətlərinin, yataqların yerinin öy-rənilməsində mühüm əhəmiyyət daşı-yan xəritələrin tərtib olunmasında, yə-ni, geoloji kəşfiyyat sahəsində müxtə-xəssis kimi yetişmişdir. Evimizdə ad-larını tez-tez eşitdiyim dostları və iş yoldaşları, görkəmli geoloqlar – Böyü-kağa, Vəzir, Muxtar və b. haqqında Pirmurad Əhmədov yüksək fikirdə idi. Onların ixtisaslarını dərindən bilən, bilikli və müdrik olduqlarını söyləyər, özündən yaşca böyük, qocaman mü-həndis-geoloqlardan daşların, süxurla-rın, mineralların sirrlərini, Azərbaycan ərazisində yayılma sirlərini arealını öyrəndiyini qeyd edərdi.

*(Davamı var)*

***Dos.Dr. Aqil P.ƏHMƏDOV***